**Müşviq DAĞLAROĞLU**

## Kəlbəcərdənəm

Gəl, sənə söyləyim haralıyam mən,
Səfalı yaylaqlı Kəlbəcərdənəm.
Hər yanı al-əlvan, güllü-çiçəkli,
Nəğməkar bulaqlı Kəlbəcərdənəm.



**Qəzet üçün hazırlanan bədii yazılar nəzərdən keçirilərkən**

Düzləri naxışlı, dağları gözəl,
Bağçası ətirli, bağları gözəl...
Günləri mənalı, çağları gözəl,
Süfrəsi qonaqlı Kəlbəcərdənəm.

Çölləri gəzməli, yaşıl meşəli,
Laləli, nərgizli, tər bənövşəli...
Müşviqəm, sərvətli cənnət guşəli,
İstisu soraqlı Kəlbəcərdənəm.

**20.08.2017**

Türküstan.- 2023- cü il.- 24- 30 oktyabr.- S.- 11.- №-38.